1_Layout 1 30.10.2017 11:31 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 21 (512)
31 oktyabr
2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İSTANBULDA D-8 İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ IX ZİRVƏ GÖRÜŞÜNDƏ XÜSUSİ QONAQ QİSMİNDƏ İŞTİRAK EDİB

***Oktyabrın 20-də İstanbulda İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) "Əməkdaşlıq yolu ilə imkanları artırmaq" devizi altında IX Zirvə görüşü keçirilib.***

**AZƏRTAC**-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə xüsusi qonaq qismində Zirvə görüşündə iştirak edib.

Əvvəlcə birgə foto çəkdirilib. Zirvə görüşü müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlayıb. İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının - D-8-in baş katibi Seyid Ali-Mohammad Musəvi Zirvə görüşünü açıq elan edərək tədbirin əhəmiyyətindən danışıb.

D-8 təşkilatının hazırkı sədri, Pakistanın Baş naziri Şahid Xaqan Abbasi qurumun müasir dövrdə fəaliyyətinin daha da genişləndirilməsində üzv ölkələrin səylərinin gücləndirilməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, Pakistan D-8 təşkilatına sədrliyi dövründə bu qurumun möhkəmlənməsinə və inkişafına çalışıb.

Baş nazir Şahid Xaqan Abbasi D-8 təşkilatına sədrliyin Pakistandan Türkiyəyə keçdiyini elan edib.

Təşkilatın yeni sədri Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında üç qitədə yerləşən ölkələri əhatə edən D-8-in son 20 ildə fəaliyyətinin uğurlu olduğunu vurğulayaraq, dünyada baş verən gərginliklər fonunda Zirvə görüşünün keçirilməsinin önəmini qeyd edib.

**Azərbaycan Prezidenti İlham Əliyev D-8-in IX Zirvə görüşündə çıxış edib:**




*Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan.*
*Hörmətli baş katib.*
*Xanımlar və cənablar.*

İlk növbədə, əziz qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşünə dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm.

Azərbaycan D-8-in üzvü olmamasına baxmayaraq, Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycanı bu tədbirə dəvət edib. Mən buna görə öz qardaşıma dərin təşəkkürümü bildirirəm.

2015-ci ilin noyabr ayında "Böyük iyirmilər"in Zirvə görüşü Türkiyənin Antalya şəhərində keçirilib. Türkiyə bu görüşə qrupa üzv olmayan yalnız bir ölkəni xüsusi qonaq kimi dəvət edə bilərdi və Prezident Rəcəb Tayyib Ərdoğan bu tədbirə Azərbaycanı dəvət etmişdir. Bu, bir daha Azərbaycan-Türkiyə qardaşlığının, dostluğunun bariz nümunəsidir.

Hörmətli görüş iştirakçıları, mən sizin diqqətinizi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb etmək istəyirəm. Ermənistan 25 ildən artıqdır ki, Azərbaycanın tarixi torpaqlarını - Dağlıq Qarabağı və ətrafındakı 7 rayonu işğal edib. Həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. 1992-ci ildə Ermənistan Xocalı soyqırımını törədib. Bu hərbi cinayət nəticəsində 613 dinc azərbaycanlı qətlə yetirilib, onlardan 106-sı qadın və 63-ü uşaqdır. Minlərlə insan itkin düşüb və yaralanıb. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişlər. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və azərbaycanlı mülki əhaliyə qarşı hərbi cinayətlərini davam etdirir.

Ötən ilin aprelində təmas xəttində Ermənistanın silahlı hücumu nəticəsində mülki şəxslər və hərbçilər həlak olub. Yüzlərlə yaşayış evi dağıdılıb. Azərbaycan Ermənistanın bu təxribatının qarşısını qətiyyətlə aldı, ordumuz torpaqlarımızın bir hissəsini erməni işğalçılarından azad etdi. Bundan sonra Ermənistan tərəfindən tamamilə dağıdılmış Cocuq Mərcanlı qəsəbəsi yenidən quruldu. 150 evdən ibarət bu qəsəbədə məktəb, tibb məntəqəsi və məscid tikildi. Bu məscid ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəridir.

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək ki, onun əzəli torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu deyil və olmayacaq.

Hörmətli görüş iştirakçıları, Azərbaycan İslam həmrəyliyinə xüsusi əhəmiyyət verir və öz töhfəsini verir. 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi ili" elan olunub. Eyni zamanda, bu il Azərbaycanda 54 müsəlman ölkəsindən gələn 3 minə yaxın idmançının iştirak etdiyi IV İslam Həmrəyliyi Oyunları keçirilib. Biz bu gün dünyada ən ciddi təhlükələrdən biri olan islamofobiyaya qarşı fəal mübarizə aparırıq. Özünü müsəlman ölkələrinin dostu kimi qələmə verməyə çalışan Ermənistan Dağlıq Qarabağ və ətraf bölgələrdə məscidləri və dini abidələri dağıdıb. Məscidləri dağıdan ölkə heç vaxt müsəlman ölkələrinin dostu ola bilməz.

İki gün əvvəl Azərbaycan müstəqilliyinin bərpasının 26-cı ildönümünü qeyd edib. Qısa müddət ərzində ölkəmiz uğurlu inkişaf yolu keçmişdir. 2004-cü ildən başlayaraq iqtisadiyyatımız 3 dəfədən çox artmış, iki milyona yaxın iş yeri açılmışdır. Yoxsulluq beş faizə düşmüşdür. Savadlılıq 100 faizə yaxındır. Valyuta ehtiyatlarımız ölkənin ümumdaxili məhsuluna bərabərdir. Xarici dövlət borcu ümumdaxili məhsulun 20 faizindən azdır. Azərbaycanın bu uğurları beynəlxalq təşkilatlar tərəfindən də qeyd olunur. Davos İqtisadi Forumunun iqtisadiyyatın rəqabətqabiliyyətliliyi üzrə builki hesabatında Azərbaycan 35-ci yeri tutub.

Azərbaycan beynəlxalq miqyaslı layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Bu gün biz tərəfdaşlarımızla birlikdə "Cənub Qaz Dəhlizi" layihəsini icra edirik. Bu, dünyanın ən böyük infrastruktur layihələrindən biridir. "Cənub Qaz Dəhlizi"nin əsas hissəsi olan TANAP qaz kəməri üzrə saziş 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında İstanbul şəhərində imzalanmışdır və bu kəmər gələn il istifadəyə veriləcəkdir.

Tezliklə rəsmi açılışı olacaq Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiya arasında ən qısa yol olacaqdır. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasına böyük sərmayələr qoyur. Bu nəqliyyat dəhlizləri Avrasiyanın iqtisadi inkişafı üçün yeni imkanlar açacaqdır. Diqqətinizə görə minnətdaram.

Zirvə görüşündə D-8 Şurasının 16-cı, 17-ci və xüsusi sessiyalarının hesabatları dinlənilib, gündəlikdə duran məsələlər müzakirə olunub.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Azərbaycan Prezidenti İlham Əliyevin və digər ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə D-8 təşkilatı ilə İslam İnkişaf Bankı arasında Anlaşma Memorandumu imzalanıb.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına səfəri oktyabrın 20-də başa çatıb.**

# DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB

***Daxili Qoşunlarda hərbi intizamın vəziyyətini yüksək qiymətləndirən Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov növbəti illərdə də bu istiqamətdə əldə olunan nailiyyətlərin qorunub saxlanılması məqsədilə aidiyyəti vəzifəli şəxslərə konkret tapşırıqlarını verib***




Oktyabrın 28-də Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın "Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti haqqında" növbəti iclası keçirilib.

İclasda giriş sözü ilə çıxış edən Hərbi Şuranın sədri, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov oktyabr ayının 10-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin 9 ayının sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında çıxış edən ölkə başçısının genişməzmunlu nitqinə istinad edərək diqqətə çatdırıb ki, ötən 9 ayda iqtisadi göstəricilər çox müsbət olub, güclü siyasi iradə, xalq-iqtidar birliyi, iqtisadi müstəqillik nəticəsində ölkəmiz dünyada müstəqil siyasət aparan ölkə kimi tanınıb.

Sonra o, 9 ay ərzində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının qarşıya qoyulmuş bütün xidməti-döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyini, mühüm beynəlxalq tədbirlərdə müəyyən edilmiş vəzifələrin öhdəsindən layiqincə gəldiyini deyib.

İclasda Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti haqqında məruzə ilə çıxış edib.

Qeyd edilib ki, hesabat dövründə qoşunların şəxsi heyəti ilə tərbiyə işi qanunçuluğun və hərbi intizamın vəziyyətinin möhkəmlənməsinə, nizamnamədənkənar münasibətlərin və xəsarətalma hallarının qarşısının alınmasına, komandir və rəislərin şəxsi nümunəliyinin təmin olunmasına, qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə, döyüş xidmətinin keyfiyyətlə aparılmasına, tərbiyə işi tədbirlərinin və ictimai-siyasi hazırlığın keyfiyyətinin yüksəldilməsinə yönəlib.

Bildirilib ki, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"ndan irəli gələn tələblərlə əlaqədar hərbi qulluqçuların sağlamlığının qorunmasına xidmət edən təşviqedici və maarifləndirmə işləri genişləndirilib, sağlam həyat tərzinin təbliğ olunması, narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işi gücləndirilib.

Birgə tədbirlər planına əsasən, Respublika və Bakı Hərbi Prokurorluğunun əməkdaşlarının Daxili Qoşunların Baş İdarəsinin və hərbi hissələrin şəxsi heyəti qarşısında hüquqi maarifləndirici çıxışları təşkil edilib, şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbi qulluqçulara Cinayət Məcəlləsinin müvafiq maddələri izah edilib.

Bundan başqa, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının nümayəndələri Daxili Qoşunların Ali Hərbi Məktəbində və hərbi hissələrində hərbi qulluqçuların məişət şəraitləri ilə tanış olub, onlarla müvafiq söhbətlər aparıblar.

Həmçinin şəxsi heyətlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin səlahiyyətli şəxsləri tərəfindən qeyri-qanuni dini fəaliyyətin, separatçı və ekstremist yönümlü hərəkətlərin qarşısının alınması və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri mövzusunda maarifləndirici konfranslar keçirilib.

Daha sonra məruzəçi qeyd edib ki, hərbi intizamın təhlilinə əsasən, görülmüş işlərin nəticəsində Daxili Qoşunlarda 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 2017-ci ilin 9 ayı ərzində kobud intizam pozuntuları 5 hal, hadisələrin sayı 7, xəsarətalmaların sayı isə 10 hal azalıb.

Çıxışının sonunda polkovnik M.Qənbərov vurğulayıb ki, Baş İdarənin şöbə və xidmət rəisləri, hərbi hissələrin komandanlıqları bundan sonra da müsbət nəticələrin əldə olunması məqsədilə əzmlə çalışacaq, qoşunlarda hərbi intizamın vəziyyətinin yüksək səviyyədə saxlanılması, xidməti-döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsi istiqamətində hər bir hərbi qulluqçu əlindən gələni əsirgəməyəcək, üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşacaq.

Hərbi Şuranın iclasında bir sıra hərbi hissələrin komandirlərinin və hissə komandirlərinin tərbiyə işləri üzrə müavinlərinin mövcud vəziyyət, fəaliyyətdə yol verilmiş nöqsan və çatışmazlıqların yaranma səbəbləri barədə hesabat-çıxışları dinlənilib.

İclasa yekun vuran general-leytenant Ş.Məmmədov Daxili Qoşunlarda qanunçuluğun, hərbi intizamın möhkəmləndirilməsi və tərbiyə işinin daha da yaxşılaşdırılması ilə əlaqədar bir sıra mühüm tapşırıqlarını aidiyyəti vəzifəli şəxslərin diqqətinə çatdırıb.

Qeyd edib ki, şəxsi heyətin Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət ruhunda tərbiyə olunmasına, dövlətə, xalqa sədaqət, xidməti borcun yerinə yetirilməsinə məsuliyyətlə yanaşma, yüksək intizam və mənəviyyat, mətinlik, fiziki dözümlülük və hərbi peşəkarlıq keyfiyyətlərinin aşılanmasına xüsusi diqqət yetirilsin.

Eyni zamanda nəzərə çatdırılıb ki, vəzifəsindən asılı olmayaraq bütün komandir və rəis heyətinin tərbiyəçi olmaları əsas şərt kimi qəbul edilsin, xidməti fəaliyyətlərində hərbi intizamın möhkəmləndirilməsinə, tərbiyə işinin keyfiyyətlə keçirilməsinə, qanunçuluğun möhkəmləndirilməsinə önəm verilsin, sağlam mənəvi-psixoloji mühitin yaradılması əsas vəzifələrdən hesab edilsin.

O, hərbi qulluqçuların sosial-hüquqi müdafiəsi istiqamətində biliklərinin artırılmasına, sağlamlıqlarının qorunmasına diqqətin artırılmasının, sosial şəbəkələrdən düzgün istifadəsinə yönəlmiş sosioloji maarifləndirmə işinin mütəmadi olaraq həyata keçirilməsinin zəruriliyini vurğulayaraq, bu işdə dünya praktikasında qəbul olunmuş qabaqcıl təcrübədən istifadə olunmasının vacibliyini vurğulayıb.

Cənab Komandan qeyd edib ki, cari ilin sonunadək şəxsi heyət arasında tərbiyə işinin təşkili və hərbi intizamın möhkəmləndirilməsində olan müsbət tendensiya qorunub saxlanılmalıdır ki, bu da öz növbəsində döyüş hazırlığının yüksəldilməsinə, döyüş xidmətinin müvafiq nizamnamə və təlimatların tələblərinə uyğun sayıqlıqla aparılmasına, qarşıya qoyulmuş istənilən tapşırığın yerinə yetirilməsinə zəmin yaradacaq.

Əminliklə vurğulanıb ki, ölkədə ictimai təhlükəsizliyin təmin edilməsi və ictimai qaydaların qorunmasında şəxsi heyət mətinliklə dayanmaqla, Daxili İşlər Nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri bundan sonra da məsuliyyətlə yerinə yetirəcək, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara olan diqqət və qayğısına layiqli xidmətləri ilə cavab verəcək.

**Mətbuat xidməti**

2_Layout 1 30.10.2017 11:33 Page 1



# ŞƏXSİ HEYƏT UÇUŞ TAPŞIRIQLARINI UĞURLA YERİNƏ YETİRİR

***Daxili Qoşunların 17077 saylı hərbi hissəsi qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını uğurla yerinə yetirir. Bu işdə, əlbəttə ki, hərbi hissənin nümunəvi xidməti, nizam-intizamı ilə fərqlənən hərbi qulluqçularının rolu böyükdür.***









Onlardan biri helikopter manqasının komandiri mayor Rəşad Cumayevdir. O, 14 noyabr 1980-ci ildə Yevlax rayonunda dünyaya gəlib. Ali təhsilini 1997-ci ildə Milli Aviasiya Akademiyasının "Mühəndis-təyyarəçi" fakültəsində alıb. Daxili Qoşunların sıralarında xidmət edənə qədər öz ixtisası üzrə müxtəlif vəzifələrdə çalışıb. 17077 saylı hərbi hissədə 2010-cu ildən 2012-ci ilə kimi pilot-şturman vəzifəsini icra edib. 2012-ci ildə ekipaj komandiri vəzifəsinə təyin olunub. 2015-ci ildən helikopter manqasının komandiridir. Hərbi hissə komandiri tərəfindən savadlı mütəxəssis kimi xarakterizə olunur. 2012-ci ilin sentyabr ayında Ukrayna Respublikasının Kreminçuk şəhərində keçirilən 40 günlük bort-mühəndis kursunda iştirak edib. Dəfələrlə müxtəlif mükafatlara layiq görülüb.

Manqanın şəxsi heyətini daima uçuşa hazır vəziyyətdə saxlamaq, ekipajların uçuşa sərbəst hazırlığını təşkil etmək, uçuşların təhlükəsizliyini təmin etmək, pilotlarla birgə müvafiq hesablamalar aparılmasını yerinə yetirmək, həmçinin qarşıya çıxa biləcək qəfləti tapşırıqların yerinə yetirilməsinə hazır olmaq onun əsas vəzifələridir.

Mayor R.Cumayev bildirir ki, uçuşdan bir gün öncə uçuşa hazırlıq həyata keçirilir. Belə ki, ilk olaraq helikopterlərə texniki heyət tərəfindən baxış keçirilir, texniki qulluq göstərilir və müvafiq reqlament işləri aparılır. Bu zaman nasazlıqlar aşkar olunarsa, dərhal aradan qaldırılır.

Uçuşun həyata keçirildiyi gün isə ilk olaraq xəritə üzərində qoyulan müvafiq tapşırıq müzakirə edilir, marşruta və hava şəraitinə uyğun olaraq helikopterin yanacağı və daşınılacaq yükün çəkisi müəyyən edilir.

Manqa komandiri qeyd edir ki, helikopterlər 4 tona qədər yük, 24 nəfər desant və ya 12 nəfər yaralı götürə bilər. Helikopterin öz çəkisi ilə birlikdə ümumi yükün çəkisi 13 tondan artıq ola bilməz. Manqa komandiri onu da əlavə etdi ki, xəritə üzərində müvafiq hesablama işləri aparılan müddət ərzində borttexnik baş leytenant Böyükağa Babayev bortu hazırlayır, helikoptera baxış keçirir və helikopterin vəziyyəti, nasazlıqlar varsa, onların aradan qaldırılması, yanacaqla tam təmin edilməsi, yükün miqdarı və ümumilikdə, bortun uçuşa hazır olması barədə manqa komandirinə məruzə edir. Sonra yenidən birlikdə helikopterə ümumi xarici baxış keçirilir və problemlər aşkar olunmazsa, helikopter uçuşa hazırlanır. Helikopterlərlə paraşüt-desantların, yük və xüsusi yüklərin, yaralıların daşınması və aidiyyəti üzrə çatdırılması, axtarış-xilasetmə və kəşfiyyat işlərinin aparılması həyata keçirilir.

Manqa komandiri həmçinin tabeliyində olan şəxsi heyətin uçuşlara hazırlığına fərdi nəzarət edir, həftənin müəyyən olunmuş günlərində məşğələlər keçirir.

Uçuş başa çatdıqdan sonra şəxsi heyətlə birlikdə obyektiv nəzarət materiallarından istifadə olunmaqla uçuşların ilkin təhlili aparılır, qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsinin nəticələri, pilotaj texnikasında, naviqasiya məsələlərində, döyüş tətbiqində, eləcə də helikopterin sistem və avadanlıqlarının istismarında aşkar edilmiş nöqsanlar müzakirə edilir, onların bir daha təkrarlanmaması üçün müvafiq tapşırıqlar verilir.

Mayor R.Cumayev onu da vurğuladı ki, 2016-cı ildə Müdafiə Nazirliyinin Goran təlim mərkəzində həyata keçirilən təlim zamanı şəxsi heyət müəyyən edilmiş tapşırığı uğurla yerinə yetirib.

Hərbi hissənin digər nümunəvi hərbi qulluqçusu pilot-şturman kapitan Emil Manafovdur. O, 1981-ci il sentyabrın 30-da Bakı şəhərində doğulub. 1998-2002-ci illərdə Memarlıq və İnşaat Universitetinin "Mühəndis-proqramçı" fakültəsində ali təhsil alıb. 2008-ci ildən Daxili Qoşunların sıralarında xidmət edir. İlk olaraq, 99713 saylı hərbi hissədə məsul icraçı, 2009-cu ilin mart ayından 17077 saylı hərbi hissədə mexanik vəzifəsində, həmin ilin noyabr ayından isə texnik vəzifəsində xidmət edib. 2011-ci ilin fevral ayında ilk zabit - "leytenant" hərbi rütbəsini alıb. 2013-cü ilin iyul ayından pilot-şturmandır. Xidmət etdiyi müddət ərzində kapitan E.Manafov dünyanın müxtəlif ölkələrində keçirilən bir çox kurslarda iştirak edərək, biliklərini daha da təkmilləşdirib, təcrübəsini artırıb. Belə ki, 2011-ci ilin fevral ayında Milli Aviasiya Akademiyasında keçirilən 40 günlük "Personal hazırlığı" kursunda iştirak edib. Həmin ilin aprel ayında isə Zabrat Qapalı Səhmdar Cəmiyyətində keçirilən bir aylıq praktiki uçuşlar kursunu əla qiymətlərlə bitirib. O, həmçinin, 2012-ci ilin sentyabr ayında Ukrayna Respublikasının Kreminçuk şəhərində bort-mühəndis, 2013-cü ilin sentyabr ayında yenidən Ukrayna Respublikasında pilot, 2014-cü ildə Milli Aviasiya Akademiyasında nəzəri və praktiki pilot kurslarında iştirak edib. Son olaraq, 2015-ci ilin sentyabr ayında Milli Aviasiya Akademiyasında nəzəri, trenajor, praktiki uçuşlar yerinə yetirməklə, heyət komandiri kurslarını əla qiymətlərlə bitirərək, sertifikatla mükafatlandırılıb.

Təcrübəli mütəxəssis vəzifələrini dərindən bilir, şturman hazırlığını daim təkmilləşdirmək üçün səylə çalışır. O, həmçinin, uçuş aparatının pilotaj-naviqasiya avadanlığının quruluşunu mükəmməl bilir və döyüş tapşırığını yerinə yetirərkən öz bilik və təcrübəsindən məharətlə istifadə etməyi bacarır. Kapitan E.Manafov qeyd etdi ki, uçuş tapşırığını müvəffəqiyyətlə yerinə yetirmək üçün ilk növbədə uçuşa əsaslı şəkildə hazırlaşmaq, uçuş xəritəsini tələb olunan qaydada hazırlamaq və hesablamaları düzgün yerinə yetirmək, eləcə də taktiki, meteoroloji və ornitoloji vəziyyəti qiymətləndirməyi bacarmaq və uçuş aparatını marşrut üzrə dəqiq və ardıcıl idarə etmək lazımdır.

Bir sözlə, şəxsi heyət uçuş tapşırıqlarını uğurla yerinə yetirir.

**baş leytenant X.Hacızadə**

# ÇAĞIRIŞÇILARIN QƏBULU YÜKSƏK SƏVİYYƏDƏ HƏYATA KEÇİRİLİB

***Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən, oktyabr ayının 1-dən 18 yaşı tamam olmuş, habelə yaşı 35-dək olan Azərbaycan Respublikasının vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı başlanılıb.***





Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının "Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" əmrinin tələblərinə əsasən, seçim qrupu yaradılıb. Belə ki, 25031 saylı hərbi hissədə çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə bağlı bütün zəruri tədbirlər həyata keçirilib. Mövcud vəziyyət barədə bizə ətraflı məlumat verən hərbi hissə komandiri polkovnik Əhliman İlmazov qoşunlara çağırışçıların qəbulu üçün hazırlıq işlərinin tam həcmdə görüldüyünü bildirdi: "Qəbulla əlaqədar Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, əsgər yataqxanası hazırlanıb, geyim təminatı, eyni zamanda digər təşkilati tədbirlər yekunlaşdırılıb. Çağırışçıların xidmətə qəbulu zamanı ortaya çıxan bir sıra problemlərin həlli üçün tərəfimizdən bütün zəruri tədbirlər həyata keçirilib".

Komissiya tərəfindən çağırışçıların mənəvi-psixoloji keyfiyyətlərinin dərindən öyrənilməsi, mövcud xəstəliklərin aşkar edilməsi, xüsusi istedadı ilə seçilənlərin aşkar olunması istiqamətində müvafiq işlər görülüb. Bununla yanaşı, əsgərlərin hazırlanmasına cəlb olunan bütün kateqoriyalı hərbi qulluqçularla metodiki-təlim toplanışları təşkil olunub.

Metodiki-təlim toplanışlarında əsgərlərin təlimi üzrə atəş, fiziki və sıra hazırlığı məşğələlərinin metodikası öyrədilərək, hərbi nizam-intizamın və hərbi qanunvericiliyin çağırışçıya aşılanması, bölük təsərrüfatının təşkili, yanğın təhlükəsizliyi və ümumilikdə, təhlükəsizlik qaydaları üzrə mövzular tədris olunub. Eyni zamanda, təlim toplanışlarının sonunda əsgərlərin hazırlanması kursuna cəlb olunan hərbi qulluqçulardan məqbullar qəbul edilib.

Hərbi hissənin tədris bölükləri üzrə paylanmış çağırışçılarla ümumi söhbətlərin aparıldığını deyən polkovnik Ə.İlmazov bu zaman əsgərlərin daha fəal olduğunu, öz problemlərini, fikirlərini sərbəst şəkildə söyləyə bildiklərini diqqətə çatdırdı. Aparılan ümumi söhbətlərin onlara mənəvi stimul verdiyini, hərbi xidmətin çətinliklərinə tez bir zamanda adaptasiya olunmaları istiqamətində dəstək olduğunu vurğuladı: "Hərbi hissə komandirinin müavinləri hər biri öz vəzifəsinə uyğun olaraq, xidmətə qəbul olunmuş çağırışçıları maraqlandıran suallar ətrafında sual-cavab axşamları keçirirlər. Həftə ərzində çağırışçıların Daxili Qoşunların Muzeyinə ziyarəti də təşkil olunur. Burada onlara qoşunların keçdiyi şərəfli döyüş yolu, vətənpərvərlik nümunələri, milli qəhrəmanlarımız haqqında ətraflı məlumatlar verilir, onların həyat yolunun bugünkü gəncliyə örnək olduğu aşılanır".

**leytenant N.Ağayeva**

# SAATDARIN AYIQ-SAYIQLIQ, ÇEVİKLİK, QƏTİYYƏT NÜMAYİŞ ETDİRMƏSİ MÜHÜM FAKTORLARDIR

***17074 saylı hərbi hissənin yüksək nizam-intizamı ilə fərqlənən bölmələrindən biri də komendant bölüyüdür.***





Günü-gündən döyüş hazırlığını artıran və təkmilləşdirən bölüyün şəxsi heyəti üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir.

Bölük komandiri baş leytenant Röyal Əzizov bölüyün apardığı qarovul xidməti barədə danışdı. Bildirdi ki, xidmətin aparılmasında bir neçə vacib şərt var ki, onlar daima diqqətdə saxlanılır. O, ilk olaraq qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların atəş hazırlığının və fiziki göstəricilərinin yüksək olmasının vacibliyini söylədi. Həmçinin, postda xidmət aparan saatdarın ayıq-sayıqlıq, çeviklik, qətiyyət nümayiş etdirməsinin, o cümlədən silahla davranma zamanı təhlükəsizlik qaydalarına ciddi əməl olunmasının mühüm əhəmiyyət kəsb edən faktorlardan olduğunu bildirdi. Bölük komandiri xidmətin təşkili zamanı müvafiq hərbi nizamnamələrin tələblərinə qeyd-şərtsiz əməl edilməsinin də başlıca amil olduğunu qeyd etdi. Onun sözlərinə görə, yalnız bu halda hərbi hissənin etibarlı mühafizəsindən danışmaq olar.

Xidmətə cəlb olunan şəxsi heyətin üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiyini deyən baş leytenant R.Əzizov qarovul rəisi kimi baş leytenant Namiq Mancanovun fəaliyyətini müsbət qiymətləndirdi. Baş leytenant N.Mancanov xidmətdə olarkən şəxsi heyətin postlarda ayıq-sayıqlığına ciddi nəzarət edir, həmçinin, onların asudə vaxtlarının səmərəli keçirilməsini, vaxtlı-vaxtında qidalanmalarını diqqətdən kənarda saxlamır.

Xidmətdə fərqlənən hərbi qulluqçulardan qarovul rəisinin köməkçisi çavuş İlqar Məmmədovun, qarovul nəfərləri baş əsgərlər İsa İsgəndərlinin, Mirmahmud Süleymanlının, Elşən Gözəlovun, əsgərlər Elmin Nurinin, Elnur Şərifovun, İlham Ağazadənin və Asim Həmidlinin adlarını çəkə bilərik.

**baş leytenant T.Əlizadə**

3_Layout 1 30.10.2017 11:34 Page 1



## ŞƏHİDLƏRİMİZ

# CƏSUR DÖYÜŞÇÜ KİMİ YADDAŞLARDA YAŞAYACAQ...

***Vətənin çağırışına səs verərək, hərbi andına sadiq qalaraq, barıt qoxulu səngərlərdə dəyanətlə vuruşaraq, Azərbaycan oğlunun şərəfini ucaltmış şəhidlərimiz xalq yaddaşında əbədi yaşayacaqlar. Hər bir şəhidin döyüş yolu çətin sınaqlardan keçib. Onlar torpaqlarımızın işğalına son qoymaq üçün müharibənin bütün əziyyətlərinə ləyaqətlə dözdülər, bəzən yaralı vəziyyətdə belə, döyüşdən çəkilmədilər, döyüş əmrini, nəyin bahasına olursa-olsun, yerinə yetirməyə can atdılar, ölüm xofu qarşısında büdrəmədilər, hamımız üçün əsl qeyrət nümunəsi göstərdilər.***

Daxili Qoşunların respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş hərbi qulluqçuları barədə bu günədək "Əsgər" və digər qəzetlərdə xeyli məqaləm dərc edilib. Bu mövzuda işıq üzü görmüş bir kitabın həmmüəlliflərindən biriyəm. Şəhid hərbi qulluqçularımızın döyüş yolu barədə tədqiqatlarımı davam etdirirəm. Qeyd edim ki, bir çox şəhid hərbi qulluqçularımızın döyüş yolu bu günədək mətbuatda və ya digər nəşrlərdə işıqlandırılmayıb. Bununla yanaşı, bəzi kitablarda və qəzetlərdə şəhidlər haqqında hərbçilik nöqteyi-nəzərdən qeyri-peşəkarcasına hazırlanmış yazılar da çap olunub. Ona görə də qəzetimiz bu mövzunu xüsusi diqqət mərkəzində saxlayır.

Hər bir şəhidin adına layiq yazının ərsəyə gəlməsi onların xatirəsinin əbədiləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ailəsinin, bütün doğmaları və dost-tanışlarının, komandirləri və döyüşçü yoldaşlarının, ümumiyyətlə, onu yaxından tanıyanların xatirələrində bir cəsur oğul yaşayır - Əliyev Emin Rafiq oğlu. O, elə oğullardan biri idi ki, el-oba qeyrətini çəkməyi bu həyatda ən uca məfhum kimi görürdü. Bu yoldan onu heç bir maneə və sədd döndərə bilməzdi.

Emin Əliyev 10 mart 1974-cü ildə Bakının Buzovna qəsəbəsində doğulub. Buzovna qədim tarixə, özünəməxsus adət-ənənələrə malik yurd yerimizdir. Qarabağ müharibəsində heç də az şəhid verməyən yaşayış məntəqələrindən biri də Buzovnadır. Emin burada böyüyüb boya-başa çatıb. Ailənin sonbeşiyi idi. Qardaşı Vüqar və o, elə bir ailə tərbiyəsi görmüşlər ki, bu, onların davranış və hərəkətlərində özünü daim müsbət cəhətdən büruzə verib. Qeyd edim ki, Eminin atası Rafiq Əliyev Azərbaycan Respublikası Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunu (hazırda Azərbaycan Respublikası Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) bitirib. 234 və 206 saylı orta məktəblərdə idman müəllimi, Bakıda hərbi zavodda baş mühəndis, Təcrübə-sınaq zavodunda məsul vəzifədə işləyib, səhhəti ilə əlaqədar təqaüdə çıxıb. İdmanın bir neçə növü ilə məşğul olub, müvafiq mükafatlar qazanıb. İdmana olan sevgi və maraq atadan oğula da keçib. Emin əlbəyaxa döyüş



ƏSGƏR ƏLİYEV EMİN RAFİQ OĞLU

növlərinə maraq göstərib, xüsusən silahsız özünümüdafiə və karate ilə məşğul olub. Daxili İşlər Nazirliyinin "Dinamo" İdman Cəmiyyətində (hazırda DİN-in İdman Cəmiyyəti) məşqlər edib, yarışlara qatılıb, idmançı kimi əzmkarlıq göstərib, uğurlara nail olub.

Eminin anası İbadət Əliyeva Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunu (hazırda Bakı Slavyan Universiteti) bitirib. 125 saylı orta məktəbdə rus dili və ədəbiyyatı müəllimi, direktor müavini, 206 saylı orta məktəbdə isə direktor işləyib. Təhsil sahəsində fədakarcasına çalışıb. Hazırda təqaüddədir. Eminin hər iki valideyninin müəllim peşəsinə bağlılığı, məsul vəzifələrdə işləmələri onun həyata baxışlarına, dünyagörüşünə sözsüz ki, təsir göstərib. O, valideynlərinin cəmiyyət içərisində hörmət və nüfuzunu uca tutmağı bir övladlıq borcu bilərək, heç vaxt onları məyus etməyib.

Eminin mənəvi dünyasına nənəsi Həlilə Əliyevanın da az təsiri olmayıb. Mənəvi və dini dəyərlərimizlə bağlı düzgün təsəvvürlərinin formalaşması onun xarakterini də püxtələşdirib.

Buzovnadakı 234 saylı orta məktəbdə təhsil almış Emin burada müəllimlərinin və məktəbli yoldaşlarının hörmətini qazanıb. Məktəbin tədbirlərində fəal iştirak edib. Bütün məktəb yoldaşları kimi, o da gələcəklə bağlı planlar qurur, arzularla yaşayırdı. Orta məktəbdən sonra ali məktəbə qəbul olunmaq arzusu baş tutmayıb. Beləliklə, əmək fəaliyyətinə başlayıb. VAZ modeli avtomobillərin təmiri mərkəzində usta köməkçisi işləyib. Zəhmətdən yayınmayıb, ona həvalə olunan işi vicdanla yerinə yetirib.

E.Əliyev 1992-ci ilin iyun ayında Əzizbəyov Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xəzər Rayon İdarəsi) tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. O, hərbi xidmətə yola düşməzdən əvvəl qardaşı Vüqar əsgərlikdən qayıtmışdı. Emin Vüqarın sağ-salamat evə qayıtmasına və hərbi xidmət ərəfəsində onunla görüşə bilməsinə çox sevinmişdi. Beləcə, əsgərliyə evdən nigaran qalmayaraq gedəcəyini demişdi.

Öncə 3280 saylı hərbi hissədə (hazırda 25031 saylı hərbi hissənin yerləşdiyi hərbi şəhərcik) hərbi xidmətə qəbul olunub, sonra 5482 saylı hərbi hissəyə (hazırda 17074 saylı hərbi hissə) göndərilib. Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının əsgəri olması ilə qürur duyurdu. Hərbi xidmətinin ilk günlərindən nizam-intizamı, təlimdə fəallığı ilə fərqlənib. Xüsusən silah və sursatların xüsusiyyətlərini mükəmməl öyrənməyə çalışıb. Emin ön cəbhəyə gedəcəyi anı səbirsizliklə gözləyirdi. Nəhayət, həmin an gəlib çatdı. Bir müddət 5482 saylı hərbi hissədə xidmət etdikdən sonra o, Ağdərə-Ağdam ön cəbhə zonaları ərazisində erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edib. Həmin ərəfədə Dağlıq Qarabağ və ətraf rayonların ərazisində şiddətli döyüşlər gedirdi. Xocalı, Şuşa, Laçın kimi şəhərlərimiz, bəzi mühüm yüksəkliklər düşmənin nəzarətinə keçmişdi. 1992-ci ilin yay və payız aylarında ordu və Daxili Qoşunların hərbi hissələri Ağdərə istiqamətində uğurlu döyüşlər aparmışlar. 1993-cü ilin əvvəllərindən başlayaraq isə düşmən xarici havadarlarının dəstəyi ilə torpaqlarımıza hücumlarını daha da genişləndirmişdi. 1993-cü ilin birinci yarısında Ağdərənin yenidən itirilməsi, Kəlbəcərin süqutu, Ağdama təhlükənin artması, bir tərəfdən də Gəncə hadisələri nəticəsində ölkədaxili qarşıdurmaların baş verməsi ön cəbhədə vəziyyəti daha da ağırlaşdırmışdı.

Eminin 3650 saylı hərbi hissənin (1993-cü ilin yanvar ayından 67987 saylı hərbi hissə) tərkibində Ağdərə-Ağdam ön cəbhə zonalarındakı Ortakənd, Kasapet, Möhrataq (Kiçik Qarabəy), Manikli (Məlikli), Canyataq, Gülyataq, Əlimədədli, Qızılı Kəngərli, Papravənd, Qalayçılar kəndləri və ətraf yüksəkliklərdən keçən döyüş yolu mərdlik nümunəsidir. Cəsur döyüşçü kimi komandirlərin etimadını doğruldub, döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı düşmənə sarsıdıcı zərbələr vurub. Məhz Emin kimi döyüşkən oğullar ön cəbhədə öz qanları və canları bahasına torpaqlarımızı müdafiə ediblər.

Emin Çingiz Bağırovun komandir olduğu taborda, Mübariz Yəhyayevin komandir olduğu bölüyün tərkibində ağır döyüşlərdən keçib. İsmayıl Misirxanov, Şahlar Allahverdiyev, Yaşar Quliyev, Vadim Kiriyev, Məhərrəm Cəfərov, Bəxtiyar Feyzullayev, Elçin Qurbanov, Eldəniz Əhmədov, Həsən Əkbərov və başqaları onun döyüşçü yoldaşları olublar.

1993-cü il iyunun 12-də Ağdamın Qalayçılar kəndinin müdafiəsi uğrunda döyüş Eminin son döyüşü oldu. Bu kənd yüksəkliklərlə əhatə olunmuşdu. Düşmən döyüş ərəfəsi kəndin ətrafında əlverişli mövqe tutmuşdu. Döyüş zamanı ermənilər bizim postları və kəndin ərazisini iriçaplı silahlardan, o cümlədən minaatanlardan şiddətli atəşə məruz qoyublar. Yerləşdiyi mövqedə qətiyyətlə vuruşan Emin mərmi partlayışı nəticəsində başının alın nahiyəsindən, döş qəfəsinin sağ tərəfindən və sağ budundan ağır yaralanaraq həlak olub. Təəssüf ki, həmin gün köməksiz qalan mövcud qüvvələrlə Qalayçıları müdafiə etmək mümkün olmayıb, kənd işğal olunub.

19 yaşında şəhidlik zirvəsinə ucalan əsgər E.Əliyev Buzovnada dəfn edilib. Buzovna qəsəbəsindəki 234 saylı orta məktəb onun adını daşıyır. Məktəbin önündə şəhidin büstü qoyulub. Büstün hazırlanmasının xərcini xeyriyyəçi Malik Atakişiyev çəkib. Şəhidin ailəsi bu xeyirxah insanın xatirəsini həmişə ehtiramla yad edir.



234 nömrəli orta məktəbin önündə şəhidin büstü.



Şəhidin xatirəsini uca tutaraq, onun ailəsinə mənəvi dəstəyini heç zaman əsirgəməyən Qafqaz Müsəlmanları İdarəsinin qazisi, axund, hacı Soltan Əlizadənin də bu xeyirxahlığı təqdirəlayiqdir. Həmçinin, Şakir Əhmədlinin müəllifi olduğu və E.Əliyevə həsr olunan "Azadlıq pərvanəsi" kitabının işıq üzü görməsinə S.Əlizadə və "Əli ayağı" qədəmgahının mütəvvəllisi olmuş mərhum hacı Arif Niftullayev maddi dəstək veriblər.

Şəhid hərbi qulluqçumuz haqqında Tamilla Muradovanın "Buzovna şəhidləri" kitabında yazı verilib. Bununla yanaşı, Azərbaycan Respublikasının "Xatirə kitabı"nda E.Əliyev haqqında məlumat dərc edilib.

"Xalq qəzeti", "Azərbaycan ordusu", "Naxçıvan", "Bakı", "İdman" və digər qəzetlərdə şəhid haqqında yazılar çap olunub.

Məqaləni hazırlayarkən Buzovnada şəhidin ailəsinə baş çəkdim. Ünvanı tapmaqda yerli sakinlər mənə köməklik göstərdilər. Ailə üzvləri ilə söhbət zamanı Emin haqqında xeyli maraqlı məlumatlar əldə etdim.

Ən çox şəhidin atası və qardaşı ilə ünsiyyətim oldu. Ailə başçısı R.Əliyevin səhhətində problemlər var, övlad itirməyin acısı sözsüz ki, izsiz qalmır. Ancaq o, iradəli insandır. Bu dərd həyat yoldaşı İ.Əliyevanın da sağlamlığına təsirsiz qalmayıb. İbadət xanım üçün oğlu barədə danışmaq çətin oldu. Ona görə də onu narahat etmək istəmədim. Rafiq müəllim dedi ki, Emin öz ailəsinin, nəslinin, el-obasının başını uca edib. Şəhidlər bütün xalqımızın ən əziz övladları kimi heç vaxt unudulmayacaqlar. Belə oğulların döyüş yolu Vətəni qoruyan gənclərə həmişə örnək olacaq.

Qeyd edim ki, Eminin babası Məmməd Qayıbxanov II Dünya müharibəsində iştirak edib. O, həmişə babası ilə qürur duyub.

Şəhidin qardaşı Vüqar Əliyev 1971-ci il təvəllüdlüdür. Azərbaycan Respublikası Dövlət Xalq Təsərrüfatı İnstitutunda (hazırda Azərbaycan Respublikası Dövlət İqtisad Universiteti) ali təhsil alıb. Sovet ordusunda xidmət edib. Xəzər rayonu ərazisində Yanğından Mühafizə Xidmətində işləyib. Səhhəti ilə əlaqədar təqaüdə çıxıb. Vüqar dedi ki, qardaşının yoxluğuna heç vaxt alışa bilməyib. "Həmişə qardaşıma mənəvi ehtiyac duymuşam. O vaxt imkan verilsəydi, onun yerinə hərbi xidmətə, eləcə də müharibəyə özüm gedərdim. Emin hər bir gəncin hərbi xidmət borcunu şərəflə yerinə yetirməsini vacib sayırdı. Döyüşə də ruh yüksəkliyi ilə gedib, öz iradəsinə güvənərək düşməndən qisas almaq hissi ilə vuruşub" - Vüqar bildirdi. Vüqarın bir oğul və bir qız övladları var. Onun oğlu əmisinin adını fəxrlə daşıyır. Emin orta məktəbdə oxuyur, ailənin idman ənənələrini şərəflə davam etdirir.

Şəhid E.Əliyevin xatirəsinə Gülarə Munis qəzəl yazıb. 234 saylı orta məktəbin müəllimləsi Kəmalə Əliyeva isə Eminə şeir həsr edib. Şeirdə belə bir bənd var:

**Vətəndaşlıq dərsini**
**Emin, biz aldıq səndən.**
**Şəhid ruhun önündə**
**Bu gün baş əyirəm mən.**

**Allah rəhmət eləsin!**

**Y.Abbasov**

## GENERALLARIMIZ

### GENERAL-MAYOR MƏHƏMMƏD SADIQ BƏY AĞABƏYZADƏ

Azərbaycan Xalq Cümhuriyyəti tariximizə elə adlı-sanlı oğullar bəxş etmişdir ki, onların adları nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda da yetərincə tanınıb və layiqli qiymətini alıb. Azərbaycanın ictimai-siyasi tarixinə adını qızıl hərflərlə yazdıran gözəl insan, şərqşünas alim, pedaqoq, hərbçilərdən biri də general-mayor Məhəmməd Sadıq bəy İsmayıl oğlu Ağabəyzadədir.

M.S.Ağabəyzadə Cümhuriyyət dövründə Azərbaycanın 21 döyüş generallarından biri olub, Daxili İşlər Nazirinin müavini vəzifəsini icra edib. Orqanlarda çalışdığı az müddət ərzində o, polis işçi rütbələrinin təsnifat sistemini işləyib hazırlayıb.

1865-ci ildə Göyçayda anadan olan Sadıq bəy orta təhsilini Bakıda realnı məktəbdə alıb. 1882-ci ildə realnı məktəbi bitirən M.S.Ağabəyzadə təhsilini Peterburq Hərbi-Piyada və Artilleriya Məktəbində davam etdirir. Hərbi Nazirliyin Baş Qərargahının Şərq dilləri üzrə kursunu qiyabi oxuyan, 1886-cı ildə bu məktəbi bitirən M.S.Ağabəyzadə həmin ildə Mixaylovski Artilleriya Məktəbinin üçüncü kursuna dinləyici kimi daxil olur.

Elmə, biliyə böyük marağı olan Sadıq bəy aldığı təhsillərlə kifayətlənməyərək, biliyini daha da təkmilləşdirmək üçün təcrübə keçməyin vacib olduğunu anlayır. O, bir zabit kimi xidməti fəaliyyətə başlamağı məqsədəuyğun sayaraq, əvvəl Rusiya ordusunun Qafqazdakı artilleriya bölmələrində, sonra isə Türküstan və Zakaspi vilayətinin hərbi hissələrində xidmət etməyə başlayır.

Podporuçik rütbəsi alan M.S.Ağabəyzadə 1899-1913-cü illərdə Türküstan (Türkmənistan) diyarının Aşqabad qarnizonunda hərbi xidmət göstərir. Sankt Peterburqda Şərq Dilləri İnstitutunu bitirir. Hərtərəfli biliyə, intellektual səviyyəyə və təhsilə malik olan M.S.Ağabəyzadə sonralar Şərq dillərindən dərs də deyir. Fars, ərəb, türk dillərini (müasir və qədim osmanlı dilləri), ərəb qrammatikasını, islamşünaslıq üzrə fənləri, müsəlman paleoqrafiyası və epiqrafiyası fənlərini də tədris etmişdir. "Turkmenskiy dialekt" kitabının müəllifi olub. Bu kitaba görə Buxara əmiri onu xüsusi mükafatla təltif edib.

1913-cü ildə M.S.Ağabəyzadəyə general-mayor rütbəsi verilib. General-mayor



rütbəsini alan Sadıq bəy təqaüdə çıxaraq, Göyçaya valideynlərinin yanına gəlir və orada yaşamağa başlayır. O, bir müddətdən sonra burada məktəb açmaq fikrinə düşür. Hazırlıq ərəfəsində qəflətən rus-alman müharibəsinin başlanması Sadıq bəyin arzusunu yarımçıq qoyur. Sadıq bəy 1914-cü ildə təkrar orduya çağırılır. O, hərbi andına sadiq qalaraq müharibəyə gedir və Qafqaz döyüşlərində iştirak edir. 1916-cı ildə Ukrayna cəbhəsinə yollanır, müharibə bitdikdən sonra doğma eli Göyçaya qayıdır.

1918-1920-ci illərdə daxili işlər orqanlarının təşkil edilməsində fəallıq nümayiş etdirir və ölkə daxilində nizam-intizam, qayda-qanun yaradılmasında, daxili işlər orqanları strukturunun formalaşdırılmasında, kabinetin fəaliyyətinin təşkilində yaxından iştirak edir. Azərbaycanda hökumət qurulduqdan sonra o, bu hökumətin Daxili İşlər Nazirinin müavini vəzifəsinə təyin edilir. O, bu vəzifəni 1918-ci ildən 1919-cu ilə kimi icra edir.

O, həm də hərbçilər arasında yüksək ali təhsilli və nüfuz sahibi olan maraqlı insan olub.

1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti süqut etdikdən və bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra Ağabəyzadə Türkiyəyə mühacirət edir və bir müddət İstanbulda yaşayır. O, İstanbulda əmisi oğlu Əlibəy Hüseynzadə ilə görüşür. Sadıq bəy 1921-ci ildə Fransaya köçərək orada yaşayır, iki il Sorbon şəhərində fars və türk dillərindən (Şərq dilləri) dərs deməyə başlayır. Alim Parisdə yaşadığı illərdə sevimli həyat yoldaşı Gülya xanımı itirir və onu Parisin müsəlman qəbiristanlığında dəfn etdirdikdən sonra orada qalmaq istəmir. 1927-ci ilin fevralında Ziqmunt Smoqjevskinin dəvəti ilə Ukraynanın Lvov Universitetinə Şərq dilləri fakültəsinə professor kimi dəvət edilir. Lvov şəhərinə köçən M.S.Ağabəyzadə Lvov Universitetində 17 il işləyir. O, əvvəl Lvov Universitetində fəlsəfə fakültəsində işləyir, az sonra isə Lvov Ali Ticarət Məktəbində türk, fars və ərəb dillərindən dərs deyir və eyni zamanda da polyak və ukrayna dillərini öyrənir. Sadıq bəy Ziqmunt Smoqjevski, V.Kotviçlə birlikdə Şərqşünaslıq Məktəbinin təşkil edilməsində yaxından iştirak edib. Bu məktəb sonralar Lvovsko-Peterburqskiy adlandırılır. Sadıq bəyin Ukraynada şərqşünaslıq elminin inkişafında da xüsusi xidməti olub. Böyük elmi yaradıcılığı olan M.S.Ağabəyzadə polyak dilində bir türk dili dərsliyi, 1932-ci ildə elementar ərəb dili qrammatikası (fonetika və morfologiya) dərsliyi nəşr etdirib.

Ukraynada böyük nüfuza sahib olan M.S.Ağabəyzadə Böyük Vətən Müharibəsi zamanında alman-faşist işğalçıları tərəfindən sıxışdırılır. Hörmətli alimi evindən çıxararaq, heç bir şəraiti olmayan zirzəmi tipli evdə yerləşdirirlər. Yaşının ahıl çağında soyuqlayan Sadıq bəy ağır xəstələnir və 9 oktyabr 1944-cü ildə Lvov şəhəri alman işğalçılarından azad edildikdən sonra o, gözlərini əbədi olaraq həyata yumur.

Lvov şəhərinin küçələrindən biri onun adını daşıyır.

**Pərixanım Mikayılqızı,**
**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin aparıcı məsləhətçi-şöbə müdiri**

4_Layout 1 30.10.2017 11:54 Page 1



# MÜASİR DÖVRDƏ DİNİ RADİKALİZM TƏHLÜKƏSİ-PROBLEMƏ BAXIŞ...

Bu gün dövlətlərin təhlükəsizliyinə, dünyəvi, tolerant cəmiyyətlərin ictimai dayanıqlığına qarşı mövcud təhlükələr arasında dini radikalizm xüsusi təhlillər, geniş müzakirələr mövzusudur. Bunun səbəbi son illər dini radikalizm zəminində münaqişələrin sayının artması, din adı ilə pərdələnən ekstremist və terrorçu qruplaşmaların ayrı-ayrı ölkələrin sabitliyinə, konstitusiya quruluşuna çox ciddi təhdid yaratmalarıdır. Dini radikalizm təhlükəli ideoloji təzahür kimi mahiyyətcə mövhumatçı, qaragüruhçu təfəkkürdən qaynaqlanır və ayrı-ayrı tarixi mərhələlərdə onun dağıdıcı fəsadları gerçəkləşib.

İnsanların dini inanclarının məğzini təhrif edən və onları yanlış yola yönləndirən dini radikalizm əsl cəhalət təlqinidir. Bu tələyə daha çox təhsilsiz, öz milli-mənəvi dəyərlərindən uzaq düşən, iradəsi zəif, dünyagörüşü tam formalaşmayan, fanatizmə meyilli, psixoloji təsirə məruz qalaraq "beyni yuyulan" insanlar düşürlər. Belə insanlar əvvəlcə öz ətrafında olanlar və getdikcə bütövlükdə cəmiyyət üçün təhlükə mənbəyinə çevrilirlər. Ona görə də radikalizmin bütün formalarına olduğu kimi, dini radikalizmə qarşı da mübarizə aparılması aktual məsələdir.

Biz bu gün Yaxın Şərq regionunun bir sıra ölkələrində baş verən neqativ prosesləri görürük. Dini radikalizm, etnik separatizm və nəhayət terrorizm bəlalarının çulğalaşaraq, dağıdıcı hadisələrə gətirib çıxararaq, milyonlarla insanı dinc həyatdan, təməl insan haqlarından məhrum etdiyinin şahidi oluruq. Böyük geosiyasi oyunların həyata keçirilməsində dini radikalizm, etnik separatizm və terrorçuluq bir vasitəyə çevriliblər.

Heç bir həqiqi dini inancın bünövrəsində başqasına qarşı təkəbbür, dözümsüzlük, aqressiya, riyakarlıq, insan ləyaqəti hissinə hörmətsizlik yoxdur və ola da bilməz. Tarix boyu insanların dini baxışlarının formalaşmasına müxtəlif formalarda müdaxilələr olub. Məhz belə müdaxilələrin nəticəsində bölücülük toxumu səpilib, məzhəbçilik, təriqətçilik baş qaldırıb, dini əqidədən sui-istifadə hallarına yol verilib.

Dini inanc insanları günah əməllərdən çəkindirmək, onların mənəviyyatlarının korlanmasının qarşısını almaq, xeyirxahlığa, mərhəmətə, qayğıkeşliyə, ədalətliliyə təşviq etmək, Vətənini, millətini qorumağa hazır olmaq əqidəsini aşılamaq baxımından cəmiyyət üçün öz vacib töhfəsini verə bilər. Bu nöqteyi-nəzərdən dini maarifləndirmə düzgün axarda getməlidir. Bunun üçün savadlı, mütərəqqi baxışlı din xadimlərinə ehtiyac var.

Müqəddəs dinimiz olan islam hər cür radikalizmə, milli-dini dözümsüzlüyə qarşıdır. İslam həmrəylik və sülh dinidir. Bu gün dünyada islamofobiya meyilləri özünü büruzə verir. Müəyyən beynəlxalq dairələr "islam fundamentalizmi" adı altında xofyaradıcı informasiya-təbliğat basqısını həyata keçirirlər. Özünü "İŞİD" adlandıran terror təşkilatının törətdiyi vəhşilikləri din faktoru ilə əlaqələndirməyə cəhdlər göstərilir. Belə bir qondarma və şərləyici yanaşmanın heç bir əsası yoxdur. İslam dini həmişə terrora qarşı olub və bu gün də belədir. Özünü "canlı bomba" halına gətirərək partladan və günahsız insanları qanına qəltan edən hər hansı bir terrorçunun dini bağlantısını qabartmaq absurd və mənasız addımdır, insan həyatına böyük dəyər verən islam dininə qarşı qarayaxmadan başqa bir şey deyil.

Azərbaycan islam dünyasının bir parçasıdır. Ölkəmiz müstəqillik əldə etdikdən sonra dini dəyərlərimizə qayıdış baş verdi. Biz dünyəvi dövlətik. Dini ənənələrimizə sadiq qalsaq da, konstitusion quruluş etibarilə ölkəmizdə din dövlətdən ayrıdır. Bu model bizim dövlətçilik ənənələrimizdən, multikultural dünyagörüşün daşıyıcısı olmağımızdan, tolerantlıq keyfiyyətlərimizdən, müasir dünyanın inteqrasiya reallıqlarından irəli gəlir.

Təməli Milli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət quruculuğu prosesində dövlət-din münasibətlərinin uğurlu inkişafına və düzgün tənzimlənməsinə nail olunub. Bununla yanaşı, dini sahədə milli qanunvericilik aktları qüvvəyə minib, ayrı-ayrı dini icmalar qeydiyyata alınıb, dini məbədlər təmir olunub və ya yeniləri inşa edilərək dindarların ixtiyarına verilib. Dövlətin dini sahədə siyasətini həyata keçirmək üçün müvafiq dövlət qurumu - Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılıb.

Onu da xüsusi vurğulamaq lazımdır ki, Milli Lider Heydər Əliyev Azərbaycanın müasir dövlətçilik tarixində Kəbəni ziyarət etmiş ilk prezidentdir.

Respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin bütün istiqamətlərdə inkişafı dini sahəni də əhatə edib. Məhz bunun nəticəsidir ki, Azərbaycan müasirləşən, islam həmrəyliyinə layiqli töhfələr verən, qlobal əhəmiyyətli layihələr həyata keçirən müsəlman ölkəsi kimi tanınır.

Azərbaycanda tarix boyu dini zəmində münaqişəyə yol verilməyib, müxtəlif dinləri təmsil edən xalqlar burada həmişə bir ailə kimi yaşayıblar. Bu gün də dini tolerantlıq ənənələri qorunaraq davam etdirilir. Respublikamızın dini sahədə çox qiymətli təcrübəsi dini radikalizmə qarşı mübarizə müstəvisində istinad oluna biləcək və bəhrələniləcək əvəzsiz mənbədir.

Məlumdur ki, dini radikalizm ideologiyasının daşıyıcısı olan xarici ölkələrdəki müəyyən cərəyanlar və təşkilatlar tərəfindən gənclərimiz arasında öz ideyalarını təbliğ etməyə cəhdlər göstərilir. Bunun üçün internetin imkanlarından geniş istifadə olunur, habelə öz təsirləri altına ala bildikləri dini inanclı şəxsləri belə missiyanı yerinə yetirməyə cəlb edirlər. Təəssüf ki, bəzi gənclərimiz bu mənfi təbliğata inanaraq yanlış yola qədəm qoyurlar. Ancaq sonradan bunun peşmançılığını çəkirlər.

Bu gün hərbi xidmətdə şəxsi heyətlə mənəvi-psixoloji hazırlıq prosesində xüsusi diqqət yetirilməli məsələlər dövlətçiliyə sədaqət ruhunda tərbiyə, milli və dini dəyərlərimizin düzgün aşılanması, zərərli ideoloji təsirlərin qarşısının alınması, o cümlədən dini radikalizm əqidəsinin fəsadlarının izah edilməsidir. Dini mövzuda maarifləndirməni vacib məqam olaraq qeyd etmək lazımdır. Bu gün şəxsi heyət arasında hərbi xidmətədək dinə meyilli olmuş, ailəsində və ünsiyyət çevrəsində dini dünyagörüşünün daşıyıcısı olan hərbi qulluqçular var. Həmçinin sosial şəbəkələr, ayrı-ayrı saytlar vasitəsilə müxtəlif məzmunlu dini təbliğatın aparıldığını nəzərə alsaq, hərbi qulluqçuların təsir altına düşməməsi üçün onlara dini mövzuda dolğun informasiya çatdırılmalıdır. Dinə mütərəqqi baxışlarla xurafat və cəhalətin bir-birinə nə qədər zidd məfhumlar olduqları aşılanmalıdır. Bu işdə müvafiq ekspertlər və mütəxəssislərin məsləhətləri də nəzərə alınmalıdır. Hərbi qulluqçuların ictimai təşkilatlarının xətti ilə də onların və ailələrinin dini radikalizm ideologiyasının təsirlərindən qorunması yönündə profilaktik iş aparmaq mümkündür.

Hərbi qulluqçu üçün ən ali mənəvi dəyər onun vətənpərvərliyidir. Dinimiz də Vətəni sevməyə və qorumağa çağırır. Hər bir hərbi qulluqçunun mənəvi-psixoloji cəhətdən yetkin olması, indiki informasiya burulğanında doğrunu təhrifdən ayırd edə bilməsi, azərbaycançılıq əqidəsinə inamı və sədaqəti, vətəndaşlıq mövqeyində ayıq-sayıqlığı və dürüstlüyü böyük əhəmiyyətə malikdir.

**Y.Abbasov**

# VƏTƏNİN LAYİQLİ MÜDAFİƏÇİSİ...

***25031 saylı hərbi hissənin nizam-intizamlı, bacarıqlı müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından biri əsgər Anar Babayevdir.***

O, 1999-cu ildə yanvar ayının 27-də Ağsu rayonunda anadan olub. Orta təhsilini 2016-cı ildə, böyüyüb boya-başa çatdığı rayonun 2 nömrəli tam orta məktəbində başa vurduqdan sonra müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2017-ci ilin yanvar ayından Daxili Qoşunların sıralarında xidmətini uğurla davam etdirməkdədir. Hazırda 25031 saylı hərbi hissənin komendant bölüyündə xidmət edir.

Hələ uşaqlıq illərindən idmana dərin maraq göstərən Anar bu günə kimi idmanın sərbəst güləş növü ilə məşğul olub. İstedadlı hərbi qulluqçumuzun nailiyyətləri də az deyil. Belə ki, o, 2014-cü ildə Bakının Əl Oyunları Sarayında sərbəst güləş üzrə keçirilən respublika çempionatında bütün rəqiblərini üstələyərək, birinci yeri qazanıb.

İdmançı kimi yetişməsi onda hərbi xidmətdə dözümlülük, əzmkarlıq kimi xüsusiyyətlərin formalaşmasına da səbəb olub. Xidmətə başladığı ilk günlərdən nümunəviliyi, tərbiyəsi və xidmətə olan münasibəti ilə digərlərindən fərqlənən əsgər A.Babayev qısa müddətdə həm komandirlərinin, həm də yoldaşlarının rəğbətini qazanıb.

Əsgər yoldaşlarına şəxsi nümunə göstərməyi bacaran, təlimlərdə fərqlənən hərbi qulluqçu verilən bütün tapşırıqları qısa zaman ərzində və keyfiyyətlə yerinə



yetirir. Daim öz üzərində çalışır, bilik və bacarığını artıraraq, bölük komandiri tərəfindən ona göstərilən etimadı daim doğruldur.

Əsgər A.Babayev söyləyir ki, komendant bölüyündə xidmət edən hər bir əsgər ilk növbədə nizam-intizamlı, təlim-tərbiyəsi ilə fərqlənməli və sağlamlıq durumu qaydasında olmalıdır.

O, həmçinin əlavə etdi ki, qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların seçilməsi hissə komandanlığı tərəfindən xüsusilə nəzarətdə saxlanılır. Xidmətdə postların vaxtlı-vaxtında dəyişdirilməsinə, silahların doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunmasına xüsusi diqqət yetirilir.

Xidmətə cəlb edilməmişdən öncə müvafiq plana əsasən bölük komandirləri və onların müavinləri tərəfindən hərbi qulluqçulara təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır: "Ümumiyyətlə, xidmətə cəlb edilməmişdən bir gün öncə hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların psixoloji durumları öyrənilir".

Komendant bölüyünün əsgəri olduğu üçün fəxr etdiyini bildirən hərbi qulluqçumuz sözlərinə bunları da əlavə etdi: "Ümumiyyətlə, Daxili Qoşunların əsgəri olduğum üçün qürur hissi keçirirəm və fikirləşirəm ki, hər bir Azərbaycan vətəndaşı kimliyindən asılı olmayaraq, Vətənə olan borcunu ləyaqətlə, vicdanla yerinə yetirməlidir. Bu gün layiqli hərbi xidmətimiz, nailiyyətlərimiz sabah döyüş meydanında qazanacağımız zəfərlərdən xəbər verir".

Bölüyün fəallarından biri kimi xarakterizə edilən əsgər A.Babayev döyüş xidmətini uğurla apardığına görə hərbi hissə komandiri tərəfindən mükafatlandırılıb. O, həmçinin bölüyə yeni gələn əsgərlərin hərbi xidmətə tez bir zamanda uyğunlaşmaları, hərbi xidmətin çətinliklərinə dözməyi bacarmaları üçün səy göstərir.

Əsgər A.Babayev Döyüş bayrağını göz bəbəyi kimi qoruyur, bu yolda lazım gələrsə, canını belə əsirgəməyəcəyini bildirir.

Onun kimi vətənpərvər oğulların timsalında əminliklə söyləmək olar ki, Vətənin fədakar əsgərləri var.

**leytenant N.Ağayeva**

# İSTEDADLI ƏSGƏRLƏRİMİZ

**Əsgər Babək Tağıyev** 1995-ci il noyabr ayının 6-da Tovuz rayonunun Eyyublu kəndində dünyaya gəlib. Ali təhsilini 2013-2017-ci illər ərzində Gəncə Dövlət Universitetində "Təsviri incəsənət" ixtisası üzrə alıb. 2017-ci ilin iyul ayından Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin komendant bölüyündə xidmət edir. Nümunəvi xidməti ilə əsgər yoldaşlarına örnək olan istedadlı hərbi qulluqçumuz eyni zamanda şeir yazmaq bacarığı ilə də seçilir. Onun vətənpərvərlik mövzusunda yazdığı şeirlərindən birini təqdim edirik:

**DAXİLİ QOŞUNLAR ƏSGƏRİYƏM MƏN**

*Yüksək intizama verilir önəm,*
*Əsgər olduğum üçün fəxr edirəm mən,*
*Döyüşdən heç zaman geri dönmərəm,*
*Daxili Qoşunlar əsgəriyəm mən.*

*Vətənə xidmətdir bizim borcumuz,*
*Daim güclənəcək güclü ordumuz.*
*Mənim də sevincim hədsiz-hüdudsuz,*
*Daxili Qoşunlar əsgəriyəm mən.*

*Əmrlər dərhal yerinə yetirilir,*
*Qanuna riayət çox önəmlidir.*
*Daxili Qoşunlar daim öndədir,*
*Daxili Qoşunlar əsgəriyəm mən.*

# HƏRBİ YENİLİKLƏR...

## Rusiyada yüksək sürətli helikopter hazırlanır



Rusiya Federasiyasının Silahlı Qüvvələri üçün hazırlanan helikopter sürətini 400 km/saatdan daha yüksəyə qaldırmağa qadir olacaq.

Bu barədə Rusiya Aerokosmik Qüvvələri Ordu Aviasiyası Hərbi Hazırlıq Mərkəzinin rəhbəri Oleq Çesnokov bildirib.

"400 km/saatdan daha yüksək sürətli helikopterlərin yaradılmasına gəlincə, bu gün bu sahədə işlər aparılır. Bu, "Mi-24" helikopterinin bazasında qurulmayan tamamilə yeni bir kompleks olacaq", - deyə Çesnokov "Qırmızı ulduz" qəzetinə müsahibəsində bildirib.

Onun sözlərinə görə, hazırda "Mi-24" helikopterinin bazasında perspektiv sürət maşınının yaradılması istiqamətində texniki işlərin aparıldığı uçan laboratoriya yaradılıb.

"Ordu aviasiyasının aviasiya komplekslərinin inkişafına aid elmi-tədqiqat sahəsindəki işlərinin böyük əksəriyyəti hədəfləri tapma məsafəsinin artırılmasına, həmçinin adi və çətin şərtlərdə hədəflərin təyin edilməsinə və günün istənilən vaxtında məhv edilməsinə yönəldilib", - deyə mərkəzin rəhbəri qeyd edib.

## Türkiyə PUA kamikadzelərin toplu istehsalına başlayıb

Türkiyə Müdafiə Sənayesi Nazirliyi 22 oktyabrda yerli pilotsuz uçuş aparatı - "Alpagu"nun toplu istehsalına başlandığını bildirib.

Türkiyə ABŞ-ın bu aparatları onlara satmaqdan imtina etməsindən sonra bu addımı atmaq qərarına gəlib.

"ABŞ keçən il bizim təklifimizə mənfi cavab verdi, bu isə nəticəsidir", - deyə Müdafiə Sənayesi Nazirliyinin müşaviri İsmail Demir bildirib.

Pilotsuz uçuş aparatı "Alpagu" dəyişdirilə bilən qanadlara sahibdir. Texniki göstəricilərinə görə, ABŞ-ın "Switchblade" dronunu xatırladır. Məlumatlara görə, bu dronun təyinatı kiçik hədəflərin məhv edilməsi və texnikanın sıradan çıxarılmasıdır.

## Hind ordusu zərbə tipli pilotsuz ABŞ aparatları ilə silahlana bilər

"Ordu.az" "İndiatimes.com" saytına istinadən bildirir ki, ABŞ prezidentinin rəhbərliyində Hindistan Müdafiə Nazirliyinin "General Atomic Predator C Avenger" pilotsuz aparatlarının əldə edilməsi ilə bağlı təklifi nəzər keçirilir.

"Predator C Avenger" dronu kəşfiyyat-atəş təyinatlı "Predator" (ingiliscə - yırtıcı) pilotsuz aparatlarının üçüncü nəslidir. "Predator A" (MQ-1) uzunmüddətli uçuş həyata keçirə bilən ilk atəş dronudur və ABŞ ordusunun arsenalına 1994-cü ildə əlavə edilib. 2001-ci ildə yaradılan "Predator B" (MQ) faydalı yükdaşıma əmsalına, sürətə və öz sələfi ilə müqayisədə maksimal yüksəklik əldə etmək bacarığına sahibdir.

Növbəti model ("Predator C") daha böyük ölçüyə, uzunmüddətli uçuş bacarığına və daha yüksək faydalı yükdaşıma əmsalına, həmçinin dəyişdirilə bilən qanad formasına sahibdir. Bundan başqa dron, reaktiv mühərriklə təchiz olunub. ABŞ-ın müdafiə nazirliyi "Predator C" pilotsuz aparatlarını stels-aviasiya ilə birgə hərbi uçuşlarda istifadə etməyi planlaşdırır.

Qeyd edk ki, cari ilin iyununda ABŞ Dövlət Departamenti Hindistana "Guardian" pilotsuz aparatının satışını təsdiq etdi. Qeyri-rəsmi məlumatlara görə, Hindistan donanması kəşfiyyat aparmaq qabiliyyətinə malik, lakin atəş açmaq imkanından məhrum 22 dron əldə edib.

Razılaşmanın ümumi dəyəri 2-3 milyard dollar civarında qiymətləndirilir. Yeni təklif isə, üçüncü nəsil ("Predator C") 80-100 atəş təyinatlı dronun əldə edilməsini nəzərdə tutur. Pilotsuz aparatların ümumi dəyəri avadanlıqlar və texniki xidmətlə birgə 8 milyard dollara qədər təşkil edə bilər.

## Çin yeni insansız suüstü kəşfiyyat aparatı yaradıb



Çinin "Yunzhou-Tech" şirkəti M80B indeksli yeni insansız suüstü kəşfiyyat aparatı yaradıb.

"AzeriDefence"nin "Janes" nəşrinə istinadən verdiyi xəbərə görə, yeni M80B aparatı Sindao şəhərində keçirilən Okean Elmləri və Texnologiyaları sərgisində nümayiş olunub.

M80B elmi tədqiqat, dəniz təhlükəsizliyi və dəniz əməliyyatlarında potensial imkanlara malikdir. Trimaran əsasında hazırlanan M80B suüstü aparatın ümumi uzunluğu 5.65 metr təşkil edir.

150 kq ağırlığı olan M80B aparatı təxminən 1,4 ton yükgötürmə qabiliyyətinə sahibdir.

M80B dəniz patrul radar sistemi olan çoxfunksiyalı aktiv sensorla təchiz olunub. Bu da aparata böyük məsafələrdə kəşfiyyat və müşahidə aparmaq imkanı verir. İnsansız suüstü aparat portativ idarəetmə stansiyasından idarə olunur.

# Allah rəhmət eləsin

17072 saylı hərbi hissənin şəxsi heyəti kapitan Asim Hüseynova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti gizir Aqşin Hüseynova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

12318 saylı hərbi hissənin şəxsi heyəti gizir Cavanşir Məmmədova **qardaşının** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
**Redaktor: X.Hacızadə**

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonu : (012) 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**